Azərbaycan ordusu.- 2020.- 13 noyabr. S. 8.

# Hamımızı səsləyir Vətən müharibəsi

Qarabağa həsrətdi nəğməli bülbüllərim,
Ətrini itiribdi həsrət çəkən güllərim,
Harayıma hay verin, obalarım, ellərim,
Hamımızı səsləyir Vətən müharibəsi.

İndi döyüşlərdədi qəhrəmanlar, ərənlər,
Bugünkü döyüşüylə sabahları görənlər,
Şəhidlik məqamıyla sənə ömür verənlər,
Göylərdən enən deyil haqqın kəsilməz səsi.

Bu qətiyyət düşmənin gözlərini ovacaq,
Azərbaycan əsgəri düşmənləri qovacaq,
Əzəli torpağımız yenə bizim olacaq,
Qurulacaq dünyanın ədalət məhkəməsi.

**Amil HÜSEYNOV,**
**Siyəzən**